**UOT 821.512.162**

**Kəmalə CƏFƏROVA**
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**cafarova66@mail.ru**

# BİR İTKİNİN HARAYSIZ QALACAQ SÖZÜ

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, sosializm realizmi, Rəsul Rza, Mikayıl Müşfiq, "Qızılgül olmayaydı"
**Keywords:** Azerbaijan literature, social realism, Rasul Rza, Mikail Mushfig, "Gizil-gul olmayaydi" ("It Wasn't a Rose")
**Ключевые слова:** азербайджанская литература, социалный реализм, Расул Рза, Микаил Мушфик, «Гызылгюл олмайайды» («Не было бы розы»)

**Giriş.** XX əsr Azərbaycan xalqının ictimai-siyasi həyatında olduğu kimi, ədəbiyyatında, mədəni həyatında da çox zəngin, eyni zamanda, olduqca mürəkkəb və təzadlarla dolu bir əsrdir. XX əsrin əvvəllərindən başlayaraq bir-birinə zidd iki hərəkatın – bolşevizmin və milli müstəqillik uğrunda mübarizə aparanların ideyalarının qarşı-qarşıya durması, böyük imperiyanın – çarizmin get-gedə süquta uğraması, bolşevizmin qalib gəlməsi XX əsrin ən böyük hadisələrindən idi. Bu fonda 1900–1920-ci illərdə bədii ədəbiyyatda, söz sənətində milli ideалların təcəssümü, ümumən ədəbiyyatın, mədəniyyətin sürətli inkişafı baş verdi. Mirzə Ələkbər Sabir (1862-1911) satirada, Cəlil Məmmədquluzadə (1869-1932) nəsrdə və dramaturgiyada, Üzeyirbəy Hacıbəyli (1885-1948) musiqi sənətində, Abbas Səhhət (1874-1918), Məhəmməd Hadi (1879-1920), Abdulla Şaiq (1881-1959), Hüseyn Cavid (1882-1941) romantik poeziyada, "Molla Nəsrəddin" jurnalı milli mətbuatın inkişafında, satira yolu ilə milləti qəflət yuxusundan ayıltmaqda, azərbaycançılıq ideologiyasının pərvəriş tapmasında mühüm rol oynadılar. Əlibəy Hüseynzadə (1864-1940), Əhməd bəy Ağaoğlu (1869-1939) isə milli-mənəvi dəyərlər, türkçülük ideyaları uğrunda mücadilədə yorulmadan fəaliyyətdə idilər. Təbii ki, Avropadan və Rusiyadan gələn, sənətə-ədəbiyyata qüvvətli təsir göstərən yeniliklər, maarifçilik ideyaları Azərbaycan mədəniyyətinin inkişafında da əhəmiyyətli rol oynadı.

Kənardan gələn təsirlərlə deyil, öz yaşarı ənənələri ilə inkişaf edən Azərbaycan ədəbiyyatı, xüsusilə Cümhuriyyət dövrü ədəbiyyatı müstəqil dövlətçiliyin formalaşdırdığı ictimai-siyasi ab-havadan qaynaqlanırdı. Bu dövr müstəqillik ideyalarını təbliğ edən əsərlərin yaranması, ədəbiyyatda azərbaycançılıq, milli-mənəvi dəyərlərin bədii təcəssümü olan şeirlərin, publisistik əsərlərin meydana gəlməsi, türkçülük ideyalarının qüvvətlənməsi ilə səciyyələnir. Türk və islam tarixi, ilk müstəqil, suveren dövlətin dəstəklənməsi, milli dövlətçilik ideologiyası, 1918-ci ilin 31 mart–3 aprel qırğınları, millətin türk keçmişi, şəhidlik və qəhrəmanlıq səhifələri, üçrəngli bayrağın vəsfi və təbii ki, Şimaldan gələn bolşevik təhlükəsi bu dövr ədəbiyyatının əsas mövzuları idi.

Lakin bolşevik istilası Azərbaycanda ictimai-siyasi həyatda olduğu kimi, ədəbiyyatda da tamam fərqli bir mənzərə yaratdı. Ədəbiyyat öz azadlığını, müstəqilliyini, həyata, gerçəkliyə obyektiv münasibətini bolşevizm ideyalarına qurban verməyə başladı. Minillik ümumbəşəri bədii tərəqqinin tarixində yeni bir epoxa – sosialist realizmi mərhələsi başlandı. Xalq yazıçısı, görkəmli tənqidçi və

ədəbiyyatşünas Elçinin (1943) "Sosrealizm bizə nə verdi?" (2010) əsərində qeyd etdiyi "...sistem güclü idi və onun həmləsinə tab gətirmək üçün həmin gücə də ekvivalent istedad tələb olunurdu. Bəzən qəribə bir mənzərə yaranırdı, eyni bir əsərdə həm sosrealizmin tələbləri, həm də istedadın təhriki ilə sosrealizmin tələblərinə o qədər də doğma olmayan bədiiyyat tələbləri öz ifadəsini tapırdı. "Bir gəncin manifesti" (Mir Cəlal) romanını xatırlayaq: bir tərəfdən fon olaraq inqilabi mövzu, o biri tərəfdən, misal üçün, Bahar kimi neçə-neçə nəsillərin sevimlisi olan Azərbaycan Qavroşunun təsir gücünə malik faciəsi. Yaxud "Bahar suları" (İlyas Əfəndiyev) pyesini xatırlayaq: bir tərəfdən fon olaraq kolxoz quruluşu, o biri tərəfdən isə kolxoz sədri Alxan kişinin zəngin daxili aləminin bədii-psixoloji təhlili... Uğur ilə Şəfəqin insani hisslər dünyası... Sosrealizmin daxilində istedadsız konyunktura ilə bərabər, istedadlı konyunktura da (!) mövcud idi" [1, s.18-19] fikir və mülahizələrlə razılaşmamaq mümkün deyil. 70 illik Azərbaycan sovet ədəbiyyatının bütövlükdə sosrealizmin tələb və qaydalarına əməl edilərək meydana çıxdığını iddia etmək də doğru olmazdı. Doğrudur, bu 70 ildə Sistem – sosrealizm öz ideoloji təsirini yazılan əksər əsərlərə göstərirdi. Xüsusilə Leninin, Stalinin, Kommunist Partiyasının tərənnümü, müsbət qəhrəmanların seçimində inqilabçıların, kollektivləşmə uğrunda mübarizə aparanların, əmək qurucularının ön plana çıxarılması ədəbiyyatın bütün janrlarında nəzərə çarpırdı. Lakin Səməd Vurğun (1906-1956), Rəsul Rza (1910-1981), Mikayıl Müşfiq (1908-1938), Süleyman Rəhimov (1900-1983), Mirzə İbrahimov (1911-1993), İlyas Əfəndiyev (1914-1996), Ənvər Məmmədxanlı (1913-1990) kimi şair və nasirlər milli-mənəvi dəyərlərə, onların təbliğinə daha çox üz tuturdular.

**Rəsul Rzanın "Qızılgül olmayaydı" poemasında Müşfiq surəti repressiya qurbanlarının ümumiləşdirilmiş obrazı kimi.** Azərbaycan poeziyasında sovet repressiyalarının törətdiyi dəhşətlərə ilk dəfə etiraz səsini ucaldan, bu qanlı cinayətlərin ziyalılarımızın, xüsusilə sənət adamlarının taleyində oynadığı müdhiş faciələrə bədii sözün işığında əks-səda verən şair Rəsul Rza olmuşdur. Onun 1956-1960-cı illərdə qələmə aldığı "Qızılgül olmayaydı" poeması Azərbaycan poeziyasında nakam şair Mikayıl Müşfiqin taleyi fonunda sovet repressiyasının tüğyan etdiyi otuzuncu illərin faciəli günlərini ümumiləşdirir. Poemada söhbət Müşfiqin taleyindən getsə də, Cavidlərin, Seyid Hüseynlərin, Yusif Vəzirlərin, Qantəmirlərin, Sanılıların, Ruhulla Axundovların, Abbas Mirzələrin… faciəli sonluqları gözümüzün önünə gəlir.

Bir zaman ki,
Mircəllad cəlladın əlini sıxıb,
ədalətə qənim çıxıb
qanunları yumruğunda sıxıb
dövran sürürdü.
Bir zaman ki,
cinayətin qanlı ləpirlərini
cinayət süpürürdü –
Bağırmaq olardımı
elə bir gündə? [3, s.244]

Bu misralar otuzuncu illərin siyasi ab-havası haqqında müəyyən təsəvvür yaradır. "...Dəfələrlə qışqırmaq imkanım olub. Bəziləri hələ xoşbəxt sonluğa bel

bağlayaraq işlərin gedişini öz hay-küyləriylə pozmağa qorxurlar... Bir başqaları hələ kütləyə sarı hay salmaq düşüncəsinə qədər yetişməyiblər... Nəhayət, bir növ adamlar da var ki, bir neçə adda-budda qışqırıqla bu dəryanı dalğalandırmaqdan ötrü sinələri hədsiz dolub-daşır... Mənsə bir səbəbdən susuram: ona görə ki... burada mənim şivən qoparmağımı iki yüz adam eşidər, əhliyyət eləyər dörd yüz adam eşidər, bəs iki yüz milyon necə olsun?!" [4, s.28] – bu sözlər İkinci Dünya müharibəsinin od-alovlarından keçib sovet həbs düşərgələrinin cəhənnəmini görmüş Aleksandr Soljenitsına məxsusdur. R.Rza da "haraysız qalacaq sözünü düşünərək" bu sualı eyni səbəbdən verir: "Bağırmaq olardımı elə bir gündə?" Eşidənlər olacaqdımı? – Bəlkə də olacaqdı, amma milyonlar bu bağırtını, hayqırışı, etirazı eşidib dərk edərək hay verəcəkdimi?!

Bir mən niyə?
O, sən, onlar.
Ölkənin hər yükünü,
Dərdini, məşəqqətini
çiynində aparan milyonlar.
...Yox, mən
Səhrada tək qalıb bağıran,
haray çəkib çağıran
bir itkin kimi
haraysız qalacaq
sözümü düşünürdüm... [3, s.248].

Təkcə dövrün ümumi təəssüratlarıyla kifayətlənməyən R.Rza poemada həm də cinayətkarların adlarını çəkir, azadlıqları əllərindən alınmış böyük şəxsiyyətlərin, söz adamlarının düşdükləri fəlakəti ürək yanğısı ilə qələmə alır:

Bir gündə ki,
Xorenlər iş başındaydı,
Ruhullalar zirzəmidə, can üstündə!
Bir zaman ki,
yuxarıda
pəncərələri qalın pərdəli otaqlarda
damaqda "Zolotoye runo"
tütünlü qəlyan,
qabaqda limonlu çay,
bir də imza gözləyən
"Ölüm qərarı" yazılı varaq,
deyib-gülürdü Səlim Petroviçlər,
Topuridzelər, Markaryanlar
kefləri kök,
damaqları çağ…
Aşağıda, zirzəmidə
Cuvarlı dustaq,
Anaşkin dustaq,
Seyid Hüseyn dustaq,
Cavad dustaq.

…Bir zaman ki,
tanrısı "gözəllik və sevgi" Cavid
olmuşdu "xalq düşməni".
Vəzifəli Borşovlar
Doldururdu, boşaldırdı
Tez-tez dustaqxananı [3, s.244-245].

Poemada Müşfiqin obrazında repressiya qurbanlarının faciəli taleyi ümumiləşdirilmişdir. Məhz R.Rza repressiya hadisəsinin əsl mahiyyətini poeziyada canlandıran ilk şair oldu.

Poema, əsasən, M.Müşfiqin həyat yoldaşı Dilbər xanım Axundzadəyə müraciətlə yazılmışdır. Ancaq bu müraciətdə yalnız R.Rza özü danışır. Həm də bu, dialoqdan daha çox monoloqa oxşayır. Bu söhbət-monoloqda müəllif öncə 30-cu illərin ədəbi mühitindən, M.Müşfiqlə tanışlığından söz açır:

Biz onunla tanış olduq
bir yaz səhəri
"Gənc işçi"də.
Tez məhrəm oldu
biri-birinə
könlümüzün gözü də,
qəlbimizin içi də [3, s.222].

Sonra R.Rza o illərdə Müşfiqin taleyi ilə az və ya çox dərəcədə bağlı olan gənc ədiblərin – tip və personajların portretlərini canlandırır. Dostlardan biri "məzəli bir oğlandı, iddiasız-ədasız". Amma qəlbi təmiz idi. O dost əvvəllər şeir yazırdı, amma sonra nəsrə keçdi, "daldalandı sakit məhəlləsində nəsrin". Şübhəsiz, R.Rza bununla sadiq dostu Sabit Rəhmanı nəzərdə tutur. Amma bir dost da vardı ki, "qaşqabaqlı, aləm haqsız, bir o haqlı, yetənə yetər, yetməyənə bir daş atardı". Amma bu dost həm romançı, həm də tənqidçi idi, "şeirimizə ürəkdən yanırdı, Haqq desə də, deməsə də, dediyinə ürəkdən inanırdı" – bu da, heç şübhəsiz, o illərin ən irəliçi tənqidçilərindən biri, həm də romanlar müəllifi Mehdi Hüseyndir. "Bir də şair ürəkli bədbəxt adam. Şeiri deyirlər, bir az qəribə, bir az kələ-kötürdü. Üstünə çirkab atdı neçə cinsi naməlum, neçə ləpəsi çürük tum" [3, s.224-227] – əlamətlərdən məlum olur ki, bu da o illərdə şeirləri ən çox mübahisə hədəfinə çevrilmiş Mikayıl Rəfilidir. Əlbəttə, R.Rza bu dostlar haqqında danışmaya da bilərdi, amma söhbət otuzuncu illərin ədəbi mühitindən, həm də o qasırğalı illərdən gedirsə, Müşfiqin daxil olduğu ədəbi mühiti də əks etdirmək zərurəti yaranır. Poemada Müşfiqin obrazı R.Rzanın gördüyü və yaxından müşahidə etdiyi özünəməxsus xasiyyəti, insanlara münasibəti fonunda təqdim edilir:

O, hamıdan sadəydi,
hamıdan açıqürək.
Uşaq kimi inanan,
yetim kimi kövrək.
Dilindəydi çox zaman
acığı, qəzəbi.
Həm bədəndən zəif idi,
həm də xeyli əsəbi.

Gah görürdün
kəskin, odlu sözüylə
rəqibini dağladı,
Gah görürdün,
bircə sözdən
qısılıb bir bucağa,
xısın-xısın ağladı.
…Dosta sadiq,
ülfəti yumşaq idi.
Nə deyim,
necə deyim,
yaşlı bir uşaq idi… [3, 233-234]

Poemada dörd əsas məsələ diqqət mərkəzinə çəkilir. Birincisi: otuzuncu illərin mürəkkəb, ziddiyyətli, xaotik mənzərəsində Müşfiqin obrazını – bir insan və şair kimi özünəməxsus, bənzərsiz keyfiyyətlərini əks etdirmək; ikincisi: otuzuncu illərin repressiya bəlasını və bu hərəkatın səbəblərini, nədən yarandığını nəzərə çarpdırmaq; üçüncüsü; Rəsul Rza–Müşfiq dostluğunu, onların bir-birinə səmimi münasibətlərini, Müşfiqli günlərin sevincli anlarını xatırlamaq; dördüncüsü: Müşfiqin fiziki yoxluğundan doğan təəssüf hissini – ümumiyyətlə, Müşfiqsizlik kədərini etiraf etmək. Poemada, öncə qeyd etdiyimiz kimi, əsas diqqət Müşfiq obrazına yönəldilmişdir.

Otuzuncu illərdə müəyyən qüvvələr, xüsusilə proletkultçular klassik ədəbiyyatı – Nizamini, Füzulini, Vaqifi, Cavidi və muğam sənətini, tarı inkar edir, hətta orta məktəb dərsliklərində və musiqi məktəblərində bunlara yer verilməməsini tələb edirdilər. Müşfiq öz şeirlərində alovlu bir şair kimi bu tendensiyanı qətiyyətlə pisləyirdi:

Salon susub durardı,
alovlu misraları
o, məclisə tökəndə:
"Oxu, tar, oxu, tar!
Səni kim unudar!" [3, s.234]

Poemada ikinci xətt repressiya ilə bağlıdır. Repressiyanın əliqanlı qatillərinin adlarını çəksə də, R.Rza bununla kifayətlənmir, həmin dövrdə baş verənlərə qarşı heç bir müqavimət göstərməyənləri də tənqid edir. Başda "Doğrudur, ona namərd şilləsi kimi vurulan imzalar içində mənim imzam olmadı. Heç kəs məndən iltizam almadı" desə də, sonradan, təbii ki, "Lakin necə sakit deyim ki, səsim gəldikcə bağırmadım. Xalqı ədalətsiz bir hökmü pozmağa çağırmadım…" [3, s.243] acı etirafını edir.

O dəhşətli illərdə, repressiyanın ictimai-siyasi prosesin başlıca xəttinə çevrildiyi illərdə bağırmaq, çığırmaq, haqq səsini ucaltmaq mümkün deyildi, zatən ucaltsan da, kim eşidəcəkdi ki… Ancaq bununla yanaşı, bilə-bilə öz qınına çəkilənlər, "iddiaları yekə, ürəkləri kiçik" adamlar az deyildi. Eləsi də vardı ki, açıq-aşkar mətbuatda Cavidin, Müşfiqin, Əhməd Cavadın əleyhinə yazılar yazır (məsələn, Məmməd Rahim kimi), yalançı şahid kimi ifadə verirdilər. "Beləsi bir deyil, iki deyil, axtarsan, milyonlar içində mini, yüzü var. Onların nə abır-həyası, nə utanan üzü var" [3, s.245-247]. Filologiya elmləri üzrə doktor Nazif Ələkbərli yazır:

"Rəsul Rzanın "Qızılgül olmayaydı" poeması 37-38-ci illərin xofunu və münasibətlərini etiraf və portretlər səviyyəsində cızan bir əsərdir. Burada ölənlərlə yanaşı müəllifin müasirləri olan, bu illəri nəyin bahasına aşıb keçməyi bacarmış ədiblərin də portretləri vardır. Şairin bu poemasının ləyaqəti elə təkcə keçmişə güzgü tutmağında deyil, günah sahiblərinə öz yerini anlatmaqda idi" [2, s.177].

Poemada üçüncü xətt R.Rza–Müşfiq dostluğu ilə bağlıdır. Onlar, doğrudan da, həqiqi dost olmuşlar.

Günlərimiz bir vamda keçmədi.
Yaxşısı da oldu,
pisi də.
Könlün qazancı da oldu,
ömrün itkisi də.
Mübahisəmiz də oldu,
münaqişəmiz də.
Canlı insan idik biz də.
Ömrün çətin yollarında
tərəddüdsüz bölüşdük
sevinci, ehtiyacı.
Anama "ana" dedi,
bacılarıma "bacı".
Dostları çox idi,
bütün yaxşı insanlar kimi.
Ürəyi sadə idi, zəngin idi;
bahar kimi [3, s.237-238].

Bir axşamüstü "sabah görüşərik" deyə vədələşirlər. Amma "sabah"lar olur, Müşfiq gəlmir. Beləliklə, Müşfiqsizlik, Cavidsizlik, Cavadsızlıq… illəri başlayır və poemada bu, aparıcı – dördüncü xətt kimi diqqəti cəlb edir. "Bu, təsəvvürə sığmayan bir dəhşət idi. Bir əfsanə deyildi. Qorxunc həqiqət idi" – bu misralar poetik dillə sovet repressiyasının mahiyyətini ümumiləşdirir. Müşfiqdən sonra yaşayan dostlarının haqq səslərini ucaltmaması onların işgəncələrdən, sürgündən deyil, daha çox “xalq düşməni”, “vətən xaini” kimi damğalanmaq qorxusundandır. Onlar isə xalqı, vətəni ürəkdən sevirlər. Qorxunc repressiyaya – onun baş dirijorları Stalinə və Bağırova qarşı açıq mübarizə aparmaq mümkün deyildi, bunu R.Rza da etiraf edir: "Diri qalmaq, əbədi susmaq qorxusu bağlamışdı dilimi" [3, s.250]. Və finalda R.Rza repressiya qurbanlarını bir daha yad edir, həm də bu fəlakəti törədənlərə qarşı ümumxalq qəzəbini ifadə edir:

Bəs xəyanətkarlar?
Fəlakətə səbəblər?
Onlar yox imiş məyər?
Bəs onlar almasınmı cəzasını?
…Lakin xalq bilsin,
qoy dostu-düşməni tanısın barı.
Nifrətlə damğalasın
O əliqanlıları [3, s.260].

Poemanın sonu nikbin çalarlarla bitir. Şair poemanın əvvəlində olduğu kimi, yenə Dilbərə müraciət edir. "Haqqın yolu nə qədər iztirablı olsa da, keçdik bu yolu. Sıramızda pasport aldı neçə namuslu Vətən oğlu" [3, s.261] – bu misralar poemanın həyəcanlı, dramatik axarına bir sakitlik, arxayınlıq gətirir. Şair Mikayıl Müşfiqə olan xalq sevgisini belə ifadə edir:

O da bircə günlüyə
gələ bilsəydi indi,
görərdi ki,
şaxtalar keçdi,
hava isindi.
Görərdi, şeiri
neçə dillərdə əzbər olub.
Sevdiyi Bakı nə gözəl,
yaşıl donlu şəhər olub!
…Nə dilində giley qalardı,
nə gözlərində kədər.
Oxşayardı könlünü
dillərdə, dodaqlarda gəzən
Mikayıl Müşfiq imzalı
Nəğmələr! [3, s.261-262]

"Qızılgül olmayadı" poeması Rəsul Rza poeziyasının 60-70-ci illər zirvəsinə doğru gedən yolda inamlı bir addım, güclü bir sıçrayış idi.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. Elçin. Sosrealizm bizə nə verdi? Bakı: "Mütərcim", 2009
2. Ələkbərli Nazif. Ulu vəhşət nağılı və ya ədəbiyyatda yaşanan repressiyalar. "Azərbaycan" jurnalı, 2000, № 11
3. Rəsul Rza. Seçilmiş əsərləri, beş cilddə, IV cild. Bakı: “Öndər nəşriyyat”, 2005, 336 səh.
4. Soljenitsın Aleksandr. QULAQ arxipelaqı. 1918–1956. I cild, 1-ci və 2-ci hissələr. Bakı: “Qanun” nəşriyyatı, “Əli və Nino” nəşriyyatı, 2017, 544 səh.


***Kamala Jafarova***

**The word of a missing person will be lost**

***S u m m a r y***

The twentieth century was very wealthy in the literature and culture as it was in the socio-political life of the Azerbaijani people, but also very complex and full of contradictions. From the beginning of the twentieth century, the confrontation between the ideas of two opposing movements – Bolshevism and those fighting for national independence, the gradual collapse of the Great Empire – tsarism, the victory of Bolshevism were among the greatest events of the twentieth century. Against this background, in 1900-1920$^{s}$, the embodiment of national ideals in the fiction, the art of speech, in general the rapid development of literature and culture took place. However, the Soviet revolution created a completely different picture in

literature as well as in the socio-political life of Azerbaijan. The literature began to sacrifice its freedom, independence, objective attitude to life and reality to the ideas of Bolshevism. A new epoch in the history of millennial universal artistic progress begun – the stage of socialist realism.

Rasul Rza was the first poet to revive the true nature of Soviet repressions in Azerbaijani poetry, to echo in the light of the artistic word to the terrible tragedies played by the bloody crimes committed in the fate of our intellectuals, especially artists and writers. Although his poem "It Wasn't a Rose" written in the years 1956-1960 did not fully reflect the bloody crimes of Soviet repression, the extermination of innocent people, deportation to Siberia, or the execution of the "troika" – the trinity, in Azerbaijani poetry, it summarizes the tragic days in the 1930$^{s}$, when Soviet repression raged against, depicting the fate of the unfortunate poet Mikail Mushfig. The poem was written mainly with an appeal to Mushfig's wife Dilbar khanum Akhundzade. However, only the poet himself speaks in this appeal. And it's more like a monologue than a dialogue. In this monologue, the author talks about his acquaintance with M. Mushfig and the literary environment of the 1930$^{s}$. Although the poem talks about the fate of Mushfig, the tragic endings of the Javids, Seyid Husseins, Yusif Vazirs, Gantamirs, Sanilis, Ruhulla Akhundovs, Abbas Mirzas are in front of our eyes. "Is it possible to shout the truth at a time when crime is sweeping away the bloodshed?" Would there be those who heard at a time when totalitarianism reigned and challenged? – Maybe it would be, but would the "millions carrying all the burdens, sorrows and hardships of the country on their shoulders" hear and understand this shout and protest?! The voices of protest against oppression, injustice and unfairness are like the "words which are lost while they are cried out by a missing man left alone in the desert". The poem summarizes the tragic fate of the victims of repression in the image of Mushfig.

***Кямаля Джафарова***

**Потерянные слова, оставшиеся без отклика**

***Резюме***

XX век является очень богатым, в то же время, крайне сложным и полным контрастами веком как в общественно-политической жизни азербайджанского народа, так и в ее литературной и культурной жизни. С начала XX века противостояние идей двух противоречащих друг другу движений – большевизма и лиц, боровшихся за национальную независимость, постепенное падение великой империи – царства, победа большевизма были одними из самых знаменательных событий XX века. На этом фоне в 1900-1920 годах в художественной литературе, в искусстве слова происходили олицетворение национальных идеалов, в целом, стремительное развитие литературы и культуры. Однако советская революция создала совершенно другое зрелище как в общественно-политической жизни Азербайджана, так и в литературе. Литература пожертвовала своей свободой, независимостью, объективным отношением к жизни, реалиям в пользу идей большевизма. В истории тысячелетнего общечеловеческого художественного прогресса началась новая эпоха – этап социалистического реализма.

Одним из поэтов, отразивших в азербайджанской поэзии истинную сущность советских репрессий, изобразивших в свете художественного слова

эти страшные трагедии, учиненные кровавые преступления, произошедшие в судьбе представителей интеллигенции, в частности, мастеров искусства и пера, является Расул Рза. Написанная им в 1956-1960-х годах поэма «Не было бы розы», хоть и не полностью, но отражает кровавые преступления советских репрессий в азербайджанской поэзии, уничтожение невинных людей, их ссылку в Сибирь, или же расстрел по приказу «тройки», но во всяком случае, на фоне судьбы несчастного поэта Микаила Мушфига он смог обобщить трагические дни тридцатых лет, когда бушевали советские репрессии. Поэма, в основном, написана в виде обращения М.Мушфига к своей супруге Дильбар ханум Ахундзаде. Но в этом обращении рассказывает сам поэт. К тому же оно больше напоминает монолог, чем диалог. В этой беседе-монологе автор рассказывает о своем знакомстве с М.Мушфигом, литературной среде 30-х годов. Несмотря на то, что здесь речь идет о судьбе Мушфига, перед нашими глазами оживают трагические судьбы Джавидов, Сеид Гусейнов, Юсиф Везиров, Гантемиров, Санылы, Рухулла Ахундовых, Аббасов Мирзы…. «Можно было бы кричать о правде в то время, когда кровавые следы преступлений подметали самими же преступлениями?» Кто услышал бы эти слова в то время, когда царил тоталитаризм? – Может быть и услышали бы, однако «эти миллионы, носящие на своих плечах каждое бремя, печаль, тяготы страны», услышав и осознав этот протест смогли бы откликнутся в ответ?! Крики протеста против деспотизма, несправедливости, бесправия являлись словно «оставшимися одними в пустыне словами, пропавшими без вести, оставшимися без отклика». В поэме в образе Мушфига обобщена трагическая судьба жертв репрессий.